# Dizaxlı kəndində səyyar görüş-qəbul keçirilib

***Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayev növbəti dəfə rayonun Dizaxlı kəndində vətəndaşlarla görüşüb.***

***Hüquq-mühafizə orqanlarının, aidiyyəti idarə və müəssisə rəhbərlərinin, kənd ictimaiyyəti nümayəndələrinin iştirak etdiyi görüşü giriş sözü ilə açan RİH-nin başçısı ölkədə sosial-iqtisadi sahədə həyata keçirilən layihələrin nəticəsində bütün sahələrdə əsaslı dönüş yarandığını, əhalinin maddi rifahının yaxşılaşdırılması istiqamətində müntəzəm olaraq zəruri addımların atıldığını bildirib.***

Görülən işlərin fonunda Qəbələdə də böyük uğurlar qazanıldığını qeyd edən RİH-nin başçısı rayonumuzda yeni məktəb binalarının tikildiyini, müasir tipli parkların salındığını, yolların asfaltlaşdırıldığını, qaz xətlərinin çəkildiyini, elektrik təsərrüfatında təmir işlərinin aparıldığını və digər abadlıq işlərinin görüldüyünü diqqətə çatdırıb.

Natiq son illər Dizaxlı kəndində də xeyli quruculuq işlərinin aparıldığını-- ərazini rayon mərkəzi ilə birləşdirən Mirzəbəyli-Çuxur Qəbələ-Dizaxlı-Çarxana avtomobil yollunun asfaltlaşdırıldığını, kənd məktəbi, icra nümayəndəliyi üçün yeni binaların tikilərək istifadəyə verildiyini və bütün bunların hamısının ürəkaçan olduğunu vurğulayıb.

RİH-nin başçısı bütün bunların ulu öndər Heydər Əliyev siyasətini uğurla davam etdirən möhtərəm Prezidentimiz İlham Əliyevin səmərəli fəaliyyətinin nəticəsi olduğunu qeyd edib.



Görüş-qəbulda iştirak edən kənd sakinləri rayonumuzda gedən geniş abadlıq və quruculuq işlərinə göstərdiyi qayğıya görə Prezident İlham Əliyevə razılıqlarını ifadə edib, ölkə başçısının qəbələlilərə bəslədiyi münasibəti və diqqəti yüksək qiymətləndiriblər.

Çıxış edənlərdən Məzahir Məmmədov, Ərkinaz Umarova, Cümşüd Şirinov, Tahir Səlimov, Ağəli Süleymanov, Qəhrəman Qəribov və başqaları kənddə əlavə artezian quyusunun qazılmasını, işıq dirəklərinin dəyişdirilməsini, yeni transformatorun quraşdırılmasını, yaşayış məntəqəsinin mərkəzi yolunun asfaltlaşdırılmasını və inzibati ərazinin tərkibində olan Sarıhacılı kəndinə qaz xəttinin çəkilməsini xahiş ediblər.



Rayon icra hakimiyyətinin başçısı kənd sakinləri tərəfindən qaldırılan məsələlərin həlli ilə əlaqədar aidiyyəti təşkilatların rəhbərlərinə konkret tapşırıqlar verib.

**Varis YAQUBOV,**
**Səhrab Umuyev (foto).**

# Polis işçilərinin peşə bayramı qeyd olunub

Qəbələdə 2 iyul - Azərbaycan Polisi Günü qeyd olunub. Rayon polis şöbəsinin əməkdaşları və bayram tədbirinin iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül-çiçək dəstələri düzüb, ulu öndərin əziz xatirəsini ehtiramla yad ediblər.

Tədbirin rəsmi hissəsi rayon polis şöbəsinin iclas zalında davam etdirilib. Açılış mərasimində Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazovun polis əməkdaşlarına təbrik teleqramı oxunub.

Polis şöbəsinin rəisi, polis polkovniki Nadir Məmmədov tədbirdə çıxış edərək Azərbaycan polisinin, o cümlədən Qəbələ Rayon Polis Şöbəsinin keçdiyi tarixi şərəfli yoldan danışıb. O, ümummilli lider Heydər Əliyevin 1998-ci il 24 may tarixli Fərmanı ilə hər il iyulun 2-nin Azərbaycan Polisi Günü kimi qeyd olunduğunu diqqətə çatdırıb. Nadir Məmmədov ölkəmizdə həyata keçirilən hərtərəfli islahatların nəticəsi olaraq, Azərbaycan polisinin öz peşəkarlığını artırmaqla yanaşı, beynəlxalq standartlara uyğunlaşdırıldığını qeyd edib. Prezident İlham Əliyevin rəhbərliyi altında daxili işlər orqanlarının, o cümlədən Qəbələ polisinin bu gün insanların təhlükəsizliyinin keşiyində ayıq-sayıq dayandığını, cinayətkarlığa qarşı barışmaz mübarizə apardığını bildirib.

Tədbirdə iştirak edən Qəbələ Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Abil Ağasəfov polis əməkdaşlarını peşə bayramı münasibətilə təbrik edib, Azərbaycan polisinin keçdiyi 101 illik şərəfli yoldan söhbət açıb. Daxili işlər orqanlarının müstəqil dövlətimizə uyğun formalaşmasında ümummilli lider Heydər Əliyevin müstəsna rolu olduğunu bildirən natiq, bu gün Prezident İlham Əliyev tərəfindən polis işçilərinə yüksək diqqət və qayğı göstərildiyini və bu yanaşma nəticəsində polislərimizdə məsuliyyət hissinin bir daha artdığını vurğulayıb.

Tədbirin sonunda polis veteranlarına və xidmətdə fərqlənən bir qrup polis əməkdaşına Fəxri fərmanlar və qiymətli hədiyyələr verilib.

**"Qəbələ"**

# Qəbələdə yol tikintisinə 12,7 milyon manat ayrılıb

Qəbələdə avtomobil yolunun tikintisinə 12,7 milyon manat ayrılıb.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev "Qəbələ rayonunun Böyük Əmili-Bılıx-Əmirvan avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalayıb.

Sərəncama əsasən, 10 min nəfər əhalinin yaşadığı 11 yaşayış məntəqəsini birləşdirən Böyük Əmili-Bılıx-Əmirvan avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 12,7 milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb.

# Milli Mətbuat və Jurnalistika Günü

***22 iyul - Azərbaycanda Milli Mətbuat Günü kimi qeyd olunur. Dövrün görkəmli ziyalısı Həsən bəy Zərdabinin 22 iyul 1875-ci ildə nəşr etdirdiyi "Əkinçi" qəzeti ilə əsası qoyulmuş Azərbaycan milli mətbuatı bütün dövrlərdə həqiqət carçısı olmuş, cəmiyyəti düşündürən problemləri, dövrün mütərəqqi ideyalarını əks etdirmiş, xalqımızın maariflənməsində, milli və bəşəri dəyərlərin təbliğində mühüm rol oynamışdır.***

Milli mətbuatın təşəkkül dövrü adlanan ötən əsrin əvvəllərində KİV-lərin Azərbaycan cəmiyyətinin siyasi və ideoloji fəallığının artırılmasında mühüm əhəmiyyəti olmuşdur. "Şərqi-rus", "Həyat", "Füyuzat", "Təzə həyat", "Şəlalə", "Açıq söz", "Dirilik" və digər qəzetlər xalqın milli özünüdərk hissinin formalaşmasına çalışmışlar.

Sovet hakimiyyəti illərində Azərbaycan mətbuatı kommunist ideologiyasının güclü təsiri altında fəaliyyət göstərsə də öz milli varlığını qoruyub saxlaya bilmiş, respublikanın ictimai-siyasi həyatında xüsusi fəallıq göstərmişdir.

Xalqımız öz müstəqilliyini əldə etdikdən sonra Azərbaycanda KİV-lərin sayında önəmli ölçüdə irəliləyiş baş vermişdir.

Azərbaycan Respublikası Prezidentinin 5 iyul 1991-ci il tarixli Fərmanı ilə Azərbaycanın ilk milli qəzeti olan «Əkinçi» qəzetinin birinci nömrəsinin




çapdan çıxdığı tarix - 22 iyul Azərbaycan Respublikası Milli Mətbuat və Jurnalistika Günü elan edilmişdir. Bir çox demokratik ölkələrdə olduğu kimi, Azərbaycanda da Mətbuat Şurası yaradılmış və "Mətbuat haqqında" Qanun qəbul edilmişdir. Azərbaycan Respublikası Konstitusiyasının 50-ci maddəsində söz, azad məlumat toplamaq azadlıqları, öz baxışlarının azad ifadə edilməsi və digər azadlıqlar təsbit olunmuşdur.

Ümummilli lider Heydər Əliyevin 16 avqust 1998-ci il tarixli "Azərbaycan Respublikasında söz, düşüncə və informasiya azadlığının təmin edilməsi tədbirləri haqqında" Fərmanı ilə ölkədə kütləvi informasiya vasitələri üzərində senzura ləğv edilmişdir.

Prezident İlham Əliyevin 2009-cu ilin mart ayında imzaladığı Sərəncamla Azərbaycanda fikir, söz və məlumat azadlığı şəraitinin yaxşılaşdırılması, o cümlədən kütləvi informasiya vasitələrinə dövlət dəstəyinin göstərilməsi məqsədilə Prezident yanında Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondu yaradılmışdır.

Yarandığı gündən Azərbaycan milli mətbuatı zəngin və mənalı bir inkişaf yolu keçmiş, milli özünüdərkin bərqərar olmasında, vətənpərvərlik hisslərinin aşılanmasında, ümumbəşəri dəyərlərin təbliğində müstəsna rol oynamış, xalqımızın azadlıq və müstəqillik uğrunda mübarizəsinə layiqli töhfəsini vermişdir.

**"Qəbələ"**